*UOT 373.3*

***Xatirə Zakir qızı Qocayeva***
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllimi,*
*pedaqogika üzrə fəlsəfə doktoru*
*https://orcid.org/0009-0000-7849-7393*
*E-mail: qocayeva_xatire@mail.ru*
*https://doi.org/10.69682/arti.2026.93(3).153-156*

# İBTİDAİ SİNİF ŞAGİRDLƏRİNİN ÖYRƏNMƏ MOTİVASİYASININ YÜKSƏLDİLMƏSİNDƏ OYUN ƏSASLI TƏLİM METODLARININ TƏTBİQİ

***Khatira Zakir Gojayeva***
*doctor of philosophy in pedaqogy*
*senior lecturer at Azerbaijan State Pedagogical University*

# THE APPLICATION OF GAME-BASED LEARNING METHODS IN INCREASING THE LEARNING MOTIVATION OF PRIMARY SCHOOL STUDENTS

***Хатира Закир гызы Годжаева***
*преподаватель Азербайджанского Государственного Педагогического Университета,*
*доктор философии по педагогике*

# ПРИМЕНЕНИЕ ИГРОВЫХ МЕТОДОВ ОБУЧЕНИЯ В ПОВЫШЕНИИ УЧЕБНОЙ МОТИВАЦИИ УЧАЩИХСЯ НАЧАЛЬНЫХ КЛАССОВ

**Xülasə.** İbtidai sinif şagirdlərinin öyrənmə istəyinin artırılması və bunun davamlılığının təmin olunması müasir təhsil sisteminin qarşısında duran vacib tələblərdən biridir. Bu sahədə həyata keçirilən tədqiqatlar və təcrübələr göstərir ki, oyun əsaslı təlim metodlarının dərs zamanı düzgün və sistemli tətbiqi şagirdlərin marağını və dərsdə aktiv iştirakını artırmaq da vacib rol oynaya bilər. Ənənəvi tədris metodlarından fərqli olaraq, oyun vasitəsilə öyrənmə prosesinin təşkili şagirdlərin təşviq və motivasiya səviyyəsini yüksəldir, onların fəallığını və yaradıcılığını inkişaf etdirir. Bu metodlar, həmçinin öyrənmə prosesində keçilən dərsin dərindən mənimsənilməsini təmin edir və dərsə olan marağı artırmaqla, şagirdlərin şəxsi və sosial bacarıqlarının formalaşmasına yardımçı olur. Bütün bu müsbət cəhətlər nəzərə alınaraq şagirdlərdə bu yanaşma tətbiq olunmalıdır. Bununla yanaşı oyunların tədris proqramına uyğunluğu, müəllimlərin hazırlıq səviyyəsi, infrastruktur və təlim metodlarının innovativliyi nəzərə alınmalıdır. Beləliklə, oyun əsaslı təlim metodlarının tətbiqi şagirdlərin motivasiyasını yüksəltməkdə və onları dərsə daha çox cəlb etməkdə effektiv vasitə kimi mühüm rol oynayır və bu sahədə aparılan tədqiqatların nəticələri praktikada istifadə etməyə istiqamət verir.
***Açar sözlər :*** *şagird , məktəb, motivasiya, təlim, metod, oyun*

**Abstract**. Increasing the desire to learn in primary school students and ensuring its sustainability is one of the important requirements facing the modern education system. Research and experiments conducted in this field show that the correct and systematic application of game-based learning methods during lessons can also play an important role in increasing students' interest and active participation in the lesson. Unlike traditional teaching methods, organizing the learning process through games increases the level of encouragement and motivation of students, develops their activity and creativity. These methods also ensure deep mastery of the lesson during the learning process and, by increasing interest in the lesson, contribute to the formation of students' personal and social skills. Taking into account all these positive aspects, this approach should be applied to students. In addition, the compatibility of games with the curriculum, the level of preparation of teachers, the innovativeness of infrastructure and teaching methods should be taken into account. Thus, the application of game-based learning methods plays an important role as an effective tool in increasing students' motivation and attracting them more to the lesson, and the results of research conducted in this field provide guidance for their practical use.
***Keywords:*** *student, school, motivation, training, method, game*

**Аннотация.** Повышение интереса к обучению у учеников начальных классов и обеспечение его устойчивости является одним из важных требований современной системы образования. Исследования и эксперименты, проведенные в этой области, показывают, что правильное и систематическое применение игровых методов обучения на уроках также может играть важную роль в повышении интереса учащихся и их активного участия в учебном процессе. В отличие от традиционных методов обучения, организация учебного процесса посредством игр повышает уровень мотивации и вовлеченности учащихся, развивает их активность и творческие способности. Эти методы также обеспечивают глубокое усвоение материала в процессе обучения и, повышая интерес к уроку, способствуют формированию личностных и социальных навыков учащихся. Учитывая все эти положительные аспекты, данный подход следует применять к учащимся. Кроме того, следует учитывать совместимость игр с учебной программой, уровень подготовки учителей, инновационность инфраструктуры и методов обучения. Таким образом, применение игровых методов обучения играет важную роль как эффективное средство повышения мотивации учащихся и привлечения их к уроку, а результаты исследований, проведенных в этой области, служат ориентиром для их практического применения.

***Ключевые слова:*** *ученик, школа, мотивация, обучение, метод, игра*

Oyun əsaslı təlim metodologiyasının kökləri fundamental pedaqoji nəzəriyyələrə dayanır. Xüsusilə L.Vıqotski və J.Piaje kimi alimlərin fikirlərinə görə, oyun mühiti uşağın idrak fəaliyyətini uyğunlaşdıraraq mürəkkəb tapşırıqları uşaq üçün daha anlaşılan formaya salır. Həmçinin, bu yanaşmalar sayəsində oyun, şagirdi sadəcə məlumat qəbul edən tərəf deyil, ümumi prosesin aktiv idarəçisinə çevirir.

Şagirdlərin öyrənməyə olan motivasiyasını və onları həvəsləndirən amilləri müəyyən etmək üçün müasir araşdırmalarda müxtəlif sorğu və müşahidə metodlarından istifadə olunur. Müəllim şagirdlər üçün verdiyi rəylər və şagirdlərin özünüqiymətləndirmə testləri bu proses zamanı mühüm və aparıcı rol oynayır. Motivasiyanın müəyyən edilməsi yalnız səviyyəni ölçmək üçün deyil, həm də tədrisin keyfiyyətini artırmaq və təlimi hər bir şagirdin fərdi ehtiyaclarına uyğun formalaşdırmaq məqsədi daşıyır. Anket, sorğu və müsahibə kimi metodların tətbiqi məlumatların dəqiqliyini və dərs prosesinin daha səmərəli qurulmasını təmin edir. Bütün bu araşdırmaların nəticəsində məlum olurki şagirdlərin səmərəli öyrənməsində ən optimal variant oyun metodundan istifadədir.

İbtidai sinif şagirdlərinin öyrənmə motivasiyasının yüksəldilməsində ənənəvi metodlardan fərqli olaraq oyun əsaslı təlim metodlarının tətbiqi mühüm və effektiv üsul kimi şagirdlərin intellektual və emosional inkişafına ən güclü və effektiv təsir göstərmiş metoddur. Aparılmış tədqiqatlar nəticəsindən əldə olunan nəticələr onu göstərir ki, oyun mexanizmləri ilə zənginləşdirilən təlim prosesləri şagirdlərin tədrisə marağının artmasını, diqqətinin mərkəzləşməsini və öyrənmə həvəsinin artmağa kömək edir. Bu metodlar vasitəsilə şagirdlərin yalnız dərsdə deyil, davranışlarında da müsbət dəyişikliklər müşahidə olunmuş və onların öyrənmə prosesində aktiv iştirak etdikləri müşahidə edilmişdir. Tədqiqatlar göstərir ki, oyun əsaslı təlim metodlarının düzgün qurulması və tətbiqi, müəllimlərin professional hazırlığı ilə bərabər, motivasiyanın yüksəldilməsində nəticə verən amillərdən olmuşdur. Həmçinin, ibtidai sinif şagirdlərində oyunların tədris prosesinə tətbiqi üçün diqqət edilməli olduğumuz əsas amillərdən biri, şagirdlərin fərdi xüsusiyyətləri və maraq dairələrinə nəzərə alaraq uyğunlaşma, digəri isə müasir texnoloji imkanlardan səmərəli istifadə ilə əlaqədardır. Bu metodların tətbiqi, şagirdlərin problemlərin həllində aktiv rol oynamalarına, sosial və mədəni münasibətlərin inkişafına və ən əsası öyrənmə istəyinin artmasına da köməklik edir. Beləliklə, oyun əsaslı təlim metodlarının məqsədyönlü, düzgün və aktiv tətbiqi, şagirdlərin motivasiyasını artıraraq onların istər şəxsi, istərsə də təhsil sahəsində uğurlu nəticələr əldə etməsini təmin edir. Bununla da bu nəticələr, gələcəkdə müasir təhsil sistemində oyun əsaslı təlim metodlarının geniş tətbiqi və inkişaf etdirilməsi üçün əsas vasitə olaraq vacib əhəmiyyət daşıyır.

Motivasiya və qiymətləndirmə materiallarının hazırlanması zamanı, müəllimlər şagirdlərin maraq və ehtiyaclarını nəzərə alaraq, oyun mexanizmləri və mükafatları ilə zənginləşdirilmiş interaktiv oyunlardan istifadə edə bilərlər. Bu cür yanaşma, şagirdlərin öyrənmə prosesinə aktiv qatılımını təmin etməklə bərabər, həmçinin onların müstəqil düşünmək və problem həll edə bilmə qabiliyyətlərini inkişaf etdirməyə kömək edir. Bu materiallar o cümlədən, qiymətləndirmə zamanında müşahidə və analitik məlu-

matların əldə edilməsinə şərait yaradır və yeni öyrənmə metodlarının inkişaf etdirilməsinə zəmin hazırlar. Nəticədə, bir tərəfdən şagirdlərin motivasiyası yüksəlir, digər tərəfdən öyrənmə keyfiyyəti artır və uğurlu nəticələr əldə bilirlər.

Oyun metodlarının tətbiqinin məqsədi şagirdlərin daxili həvəsinin artırılmasına və özünəinam hissinin güclənməsinə xidmət etməkdir. Oyun texnikaları ilə təlimin sintezi şagirdlər üçün aşağıdakı müsbət cəhətləri formalaşdırır:

1. Daxili həvəs: Şagird heç bir kənardan gələn təzyiq olmadan, prosesin özündən zövq aldığı üçün öyrənmə istəyi artır.

2. Psixoloji rahatlıq: Akademik yüklər oyun formatında təqdim edildiyi üçün, şagirdin emosional gərginliyi azalır.

3. Metodoloji innovasiya: Akademik yanaşmaların təhlili göstərir ki, oyun əsaslı strategiyalar müasir təhsil kurikulumlarının təkmilləşdirilməsində həlledici rol oynayır.

Dərs zamanı oyunun sadəcə əyləncəyə çevrilməməsi, həm də uşaqlar üçün təlim xarakterli olması üçün aşağıdakı prinsiplərə riayət etmək lazımdır:

1. Məqsədin aydın olması : Oyunun sonunda şagirdin hansı mövzunu öyrənəcəyi əvvəlcədən müəyyən edilməlidir.

2. Balans: oyun dərsin bütün vaxtını almamalı, izah və tətbiq arasında tarazlıq qorunmalıdır.

3. İnklüzivlik: oyun bütün şagirdlərin (həm zəif şagirdlərin, həm güclü şagirdlərin) iştirakını təmin edəcək qədər sadə, diqqətçəkən və maraqlı olmalıdır.

Oyun əsaslı təlim metodu ibtidai sinif şagirdlərinə məktəbi sevdirən və bağlayan ən qısa yoldur. Uşaq əylənərkən öyrəndiyini hiss etmir, lakin bu yolla əldə edilən biliklər daha qalıcı, təsirli və davamlı olur. Bu yolla təhsil uşaq üçün yalnız "məcburi" deyil, "kəşf" edərək öyrənmə prosesinə çevrilir.

**Nəticə.** Məqalədən bu nəticəyə gəlirik ki, şagirdlər üçün oyun sadəcə əyləncə deyil, eyni zamanda ətraf aləmi dərk etmək üçün ən optimal yoldur. Bundan əlavə olaraq oyun əsaslı metodların tədrisə inteqrasiyası şagirdlərin dərsə, müəllimə qarşı olan qorxu və gərginliyini azaldır və onları passiv dinləyicidən aktiv iştirakçıya çevirir. Təlim prosesində oyunlarından istifadə etmək dərsləri darıxdırıcı və monoton olmaqdan çıxarır, həmçinin şagirdlərin daxili motivasiyasını stimullaşdırır. Lakin effektiv nəticə almaq üçün oyunun dərsə uyğun seçilməsi və dərsin mövzusu ilə düzgün əlaqələndirilməsi vacibdir. Müəllimlərin bu sahədə rəqəmsal və ənənəvi oyun metodlarından istifadə imkanlarının inkişafı ibtidai təhsildə uğurun vacib açarlarından biri ola bilər. Oyun əsaslı təlim vasitələri şagirdlərdə yalnız bilik əldə etməyə deyil, həm də komandada işləmək bacarığı, tənqidi təfəkkürün inkişafı və problemləri yaradıcı həll etmək bacarıqlarını inkişaf etdirir. Müasir təhsil mühitində oyun metodikası təlimin keyfiyyətini yüksəldən və şagirdlərin şəxsiyyət kimi formalaşmasına xidmət edən təməl vasitə kimi qiymətləndirilə bilər. Beləliklə son olaraq onu da qeyd etmək olar ki, "oynayaraq öyrənmək" prinsipi ibtidai sinif şagirdlərinin akademik uğurlarının və məktəbə olan sevgisinin artırılmasında ən effektiv yollardan biridir.

**Problemin aktuallığı.** Müasir dövrümüzdə informasiya texnologiyalarının sürətli inkişafı və rəqəmsal mühitin uşaq psixologiyasına birbaşa təsiri ibtidai təhsil qarşısında yeni və mühüm tələblər qoyur. İbtidai sinif şagirdlərinin diqqət dağınıqlığına meyilli olması və ənənəvi, monoton tədris metodlarına qarşı marağının azalması təhsil prosesində effektivliyin aşağı düşməsinə səbəb olur. Bu baxımdan, uşaqların təbii ehtiyacı olan "oyun" fəaliyyətinin təlim prosesinə inteqrasiyası aktual məsələyə çevrilmişdir.

**Problemin elmi yeniliyi**. Məqalənin elmi yeniliyi ondan ibarətdir ki, oyun əsaslı metodların sadəcə bir əyləncə vasitəsi deyil, həmçinin, ibtidai təhsilin didaktik bazasına inteqrasiya olunmuş kompleks sistem kimi təqdim edilməsindən ibarətdir.

**Problemin praktik əhəmiyyəti** onunla müəyyən olunur ki, məqalədə yer alan fikirlər, elmi ideyalar və nəticələrdən ali və orta ixtisas məktəblərinin müəllimləri, tələbələr, magistrantlar və doktorantlar istifadə edə bilərlər.

## Ədəbiyyat


1. Abbasov, Ş. Müasir təlim texnologiyaları. / Ş. Abbasov. -Bakı: Təhsil, -2020. – 216 s.
2. Dəmirov, A. Yeni təlim texnologiyaları və müasir dərs / A. Dəmirov, S. Məmmədov, Ş. İsmayılov. – Bakı, 2007. – 342 s
3. Fərruxzadə, S. İnnovativ təlim metodları və pedaqoji bacarıqlar / –Bakı: Adiloğlu, –2018. –198s.

4. Həsənov, R. Aktiv təlim metodları və onların tətbiqi / R. Həsənov –Gəncə: Elm və Təhsil, -2021. – 152s
5. Kazımov, E. Motivasiyanın yaradılmasının şagirdin inkişafına təsiri // Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri, 2017, № 6, –. –s.167-169
6. Mehrabov, A.O. Ənənəvi və müasir təlim metodları – üstünlüklər və çatışmazlıqlar: müqayisəli təhlil. / A.O. Mehrabov. – Bakı: Mütərcim, – 2010. – 516 s.
7. Nəzərov, A.M. Müasir təlim texnologiyaları: Dərs vəsaiti. ADPU-nəşriyyatı. –Bakı, 2012. –103 s
8. Xudiyeva ,E. Təlim prosesində müsbət motivasiyanin yaradilmasinda müəllimlərin əhəmiyyətli rolu // Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri, 2025, № 5, –. 57-61
9. Garrison D. R. və Anderson T. E-learning in the 21st Century / D. R. Garrison, T. Anderson // ELearning Journal, –2010, –p.100-115
10. Yien, J. M., Hung, C. M., Hwang, G. J., & Lin, Y. C. A game-based learning approach to improving students' learning achievements in a nutrition course. // The Turkish online journal of educational technology, 10, – 2016. –p. 1-10.


**Redaksiyaya daxil olub:** 29.04.2026